

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 79 (22.990)

*28 aprel 2018-ci il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 27-də Avropa Parlamentinin Azərbaycan üzrə daimi məruzəçisi xanım Norika Nikolaini qəbul edib.

Görüşdə Azərbaycan ilə Avropa Parlamenti arasında əlaqələr müzakirə olunub.

* * *

Aprelin 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri xanım Tereza Mey ilə görüşü olub.

İkitərəfli münasibətlərimizin tərəfdaşlıq əlaqələrinə əsaslandığını deyən dövlətimizin başçısı onun Böyük Britaniyaya səfərinin əməkdaşlığımızın genişləndirilməsi işinə xidmət edəcəyinə əminliyini ifadə edib.

Söhbət zamanı regional inkişaf və təhlükəsizlik məsələləri də müzakirə olunub.

Sonra Prezident İlham Əliyevin və Baş nazir Tereza Meyin iştirakı ilə Azərbaycan Respublikası Dövlət Neft Şirkəti – SOCAR, “BP Exploration (Azerbaijan) Limited” şirkəti və SOCAR-ın Ortaq Neft Şirkəti arasında Xəzər dənizinin Azərbaycan sektorunda D230 perspektiv blokunun birgə kəşfiyyatı və işlənilməsi üzrə hasilatın pay bölgüsü haqqında saziş imzalanıb.



## Naxçıvan Muxtar Respublikasının Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin yaradılması haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin əsasında Naxçıvan Muxtar Respublikasının Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi yaradılsın.

2. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti:

2.1. Naxçıvan Muxtar Respublikasının Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin əsasnaməsinin layihəsini, strukturu və işçilərinin say həddi barədə təkliflərini hazırlayıb Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə təqdim etsin;

2.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 27 aprel 2018-ci il*

## B.M.İsmayılovun Naxçıvan Muxtar Respublikası Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin direktoru təyin edilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Bəxtiyar Məmməd oğlu İsmayılov Naxçıvan Muxtar Respublikası Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin direktoru təyin edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 27 aprel 2018-ci il*

## Yeni Azərbaycan Partiyası şəhər və rayon təşkilatlarının şura iclasları keçirilib



*Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının şura iclasında bu ilin birinci rübündə görülmüş işlər və qarşıda duran vəzifələr barədə təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Elman Cəfərli məruzə edib.*

Bu il aprelin 11-də ölkəmizdə keçirilən prezident seçkilərində Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin inamlı qələbə qazandığını qeyd edən Elman Cəfərli bildirib ki, Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının üzvləri bu seçkilərdə də yüksək fəallıq nümayiş etdiriblər.

2018-ci ilin birinci rübündə görülmüş işlər barədə danışan Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədri deyib ki, təşkilat öz fəaliyyətində Yeni Azərbaycan Partiyasının ümumi inkişaf tendensiyası ilə ayaqlaşmağa səy göstərərək 2017-ci ili qənaətbəxş şəkildə başa vurduqdan sonra, 2018-ci ilin ilk rübündə də partiyanın yuxarı orqanlarının qərar, sərəncam, tapşırıq və göstərişlərini əldə rəhbər tutaraq öz fəaliyyətini partiya rəhbərliyinin tələbləri səviyyəsində qurmağa çalışıb. Bu baxımdan, ilk növbədə, partiya fəaliyyətinin əsasını təşkil edən partiya sıralarının kəmiyyət və keyfiyyət baxımından inkişafı məsələsi daim diqqət mərkəzində olub. Nəticədə, 2018-ci il aprelin 1-nə olan məlumata görə, Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı üzvlərinin sayı 17 min 366 nəfərə çatıb. Onların 9 min 128-ni, yaxud 52,6 faizini qadınlar, 10 min 384-nü, yaxud 59,8 faizini 18-35 yaşlı gənclər təşkil edir. Üzvlərimizdən 2 nəfəri Azərbaycan Respublikası Milli Məclisinin, 20 nəfəri isə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatlarıdır. Təşkilatımızda, həmçinin 2 akademik, 6 AMEA-nın müxbir üzvü, 27 elmlər doktoru, 162 müxtəlif elmlər üzrə fəlsəfə doktorları təmsil olunur.

Vurğulanıb ki, ötən 3 ayda partiyaya qəbul olunmaq üçün müraciət edən 398 nəfərdən 373 nəfəri Yeni Azərbaycan Partiyasına üzv qəbul olunub ki, onların da 363 nəfərini və ya 97,3 faizini 18-35 yaşlı gənclər, 230 nəfərini və ya 61,6 faizini qadınlar təşkil edir.

Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədri qeyd edib ki, hesabat dövründə 3 İdarə Heyəti, 1 şura iclası keçirilib. İdarə Heyətinin iclaslarında 9, şura iclasında isə 1 məsələ müzakirə mövzusu olub, müvafiq qərarlar qəbul edilib.

“Hazırda qarşıda duran əsas vəzifələrdən biri siyasi-ideoloji işin daha da təkmilləşdirilməsidir. Məlum olduğu kimi, 2018-ci il bir sıra tarixi hadisələrlə bağlı yubileylər ilidir. Hesabat dövründə Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı tərəfindən azərbaycanlıların soyqırımının 100 illiyi, akademik Zərifə xanım Əliyevanın anadan olmasının 95 illiyi münasibətilə elmi konfranslar keçirilib”, – deyən Elman Cəfərli diqqətə çatdırıb ki, qarşıda Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü ilə bağlı geniş elmi konfrans, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik və Milli Qurtuluşun 25 illik yubiley tədbirlərinin keçirilməsi nəzərdə tutulub.

Sonra məruzə ətrafında ərazi ilk partiya təşkilatı sədrlərindən Gülçin Dünyamalıyevin, Çimnaz Nərimanovanın və Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədr müavini Ramil Orucəliyevin çıxışları dinlənilib.

* * *

***Yeni Azərbaycan Partiyası Sədərək Rayon Təşkilatında 2018-ci ilin I rübündə görülmüş işlər, qarşıda duran vəzifələrlə bağlı keçirilən yığıncaqda təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Arif Qasımov hesabat məruzəsi ilə çıxış edib.***

Qeyd olunub ki, bu il aprelin 11-də keçirilən növbədənkənar prezident seçkilərində xalqımız bir daha tarixi seçim edərək sabitliyə, inkişafa, sosial-iqtisadi tərəqqiyə, demokratik dəyərlərə səs verdi. Sədərək rayonunda seçicilərin 94,5 faizi cənab İlham Əliyevi dəstəklədi.

Vurğulanıb ki, Yeni Azərbaycan Partiyası Sədərək Rayon Təşkilatı İdarə Heyətinin 4, şurasının isə 2 iclası keçirilib. I rüb ərzində partiya sıralarına qəbulda keyfiyyət amilinə böyük önəm verilib, gənclərin Yeni Azərbaycan Partiyasına qəbul edilməsi diqqətdə saxlanılıb. Hesabat dövründə rayon partiya təşkilatının sıralarına 17 nəfər üzv qəbul edilib.

Diqqətə çatdırılıb ki, Yeni Azərbaycan Partiyası Sədərək Rayon Təşkilatının əhatə etdiyi 21 ilk partiya təşkilatının qeydiyyatında 1515 nəfər üzv vardır. Partiya üzvlərinin 296 nəfəri qadınlar, 389 nəfəri isə gənclərdir.

Arif Qasımov deyib ki, 2018-ci ildə partiya üzvlərinin qarşısında duran əsas vəzifələr sakinlər arasında ideya-siyasi işi gücləndirməkdir. Hər bir partiya üzvü Proqram və Nizamnamənin tələblərinə, prinsiplərinə əməl etməli, siyasi proseslərdə, rayonda gedən quruculuq-abadlıq işlərində, yaşıllaşdırma tədbirlərində və qarşıya qoyulan digər vəzifələrin həyata keçirilməsində fəallıq göstərməlidir.

Bildirilib ki, bu il Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü və Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi qeyd ediləcəkdir. Bu məqsədlə rayon ərazisində ulu öndər Heydər Əliyevin siyasi irsinin gənclərə öyrədilməsi istiqamətində müvafiq tədbirlər keçirilməli, ərazi ilk partiya təşkilatları fəallıq göstərməlidirlər.

Sonra məruzə ətrafında partiya fəallarının çıxışları olub. Yığıncaqda Yeni Azərbaycan Partiyası Qadınlar Şurasının sədri, Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin deputatı Vüsalə Əliyeva, Təşkilatın Gənclər Birliyinin sədri Polad Rzazadə, təşkilat üzvü Bulud Bağırlı çıxış ediblər.

***Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı Gənclər Birliyi və təşkilatın Qadınlar Şurasının birgə təşkilatçılığı ilə “Gender bərabərliyi siyasətinin Azərbaycan nümunəsi” mövzusunda konfrans keçirilib.***

## “Gender bərabərliyi siyasətinin Azərbaycan nümunəsi” mövzusunda konfrans



Tədbiri giriş sözü ilə açan Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı Qadınlar Şurasının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Yazgül Rzayeva “Simvolik Azərbaycan qadını obrazında akademik Zərifə xanım Əliyeva: həyatı və yaradıcılığı” mövzusunda çıxış edərək bildirib ki, Azərbaycan qadını Zərifə xanım Əliyeva timsalında daim axtarışda olan, yenilikçi, inkişafa meyilli, gözəl ana, qayğıkeş valideyn kimi diqqətdə olub.

Qeyd olunub ki, görkəmli akademik klinik və nəzəri oftalmologiya sahəsində fundamental tədqiqatlar aparmaqla bu sahənin inkişafının əsasını qoyub.

“Azərbaycanda gender bərabərliyi siyasəti” mövzusunda çıxış edən Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı Gənclər Birliyinin sədri Cəbi Quliyev ölkəmizdə aparılan qadın siyasəti, gender bərabərliyi barədə qəbul olunan qərarlar, fərmanlar, sərəncamlar haqqında ətraflı söhbət açıb. Bildirilib ki, Azərbaycanda aparılan gender siyasəti beynəlxalq arenada qəbul edilən bütün prinsipləri özündə ehtiva edir.

Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı Gənclər Birliyinin üzvü, Naxçıvan Dövlət Universitetinin tələbəsi Aytən Qasımova “Tarixdə və günümüzdə Azərbaycan qadını” mövzusundakı çıxışında qeyd edib ki, akademik Zərifə xanım Əliyeva şəxsiyyətində birləşdirdiyi yüksək xüsusiyyətləri, xəstələrə şəfqətli, humanist münasibəti ilə insanlığın parlaq siması kimi dəyərlidir. O, öz peşəsi ilə sübut edib ki, Azərbaycan qadını hər bir sahədə bütün uğurların zirvəsində dayana biləcək qədər qüdrətlidir. Təqdirəlayiq haldır ki, bu gün müasir Azərbaycan qadını da milli-mənəvi dəyərlərimizə bağlı formada yetişir, təhsil alır və ideal Azərbaycan qadını olmaq yolunda özünü daim təkmilləşdirir.

**Xəbərlər şöbəsi**



# İnsanlara nur bəxş edən böyük alim

***Azərbaycan oftalmologiya elmini beynəlxalq aləmdə tanıdan görkəmli akademik, tibb elmləri doktoru Zərifə xanım Əliyevanın anadan olmasından 95 il ötür.***

Zərifə xanımın fitri istedada malik novator alim, pak və nadir bir insan kimi yaşadığı ömrü, keçdiyi şərəfli həyat yolu hər bir Azərbaycan vətəndaşı, hər bir alim və həkim üçün həyat və mənəviyyat dərsi, kamillik və müdriklik məktəbidir. Onun zəngin elmi irsi, oftalmologiyanın müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, qazandığı nailiyyətlər, yaratdığı fundamental əsərlər Azərbaycan tibb elminin parlaq səhifəsidir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev görkəmli akademikin Azərbaycan tibb elminin inkişafındakı xidmətləri barədə demişdir: ***"Akademik Zərifə xanım Əliyeva respublikamızda tibb elminin inkişafına mühüm töhfələr verərək oftalmologiyanın aktual problemlərinə dair sanballı tədqiqatları ilə böyük şöhrət qazanmışdır. Onun elmi-pedaqoji və ictimai fəaliyyəti həkimlərin yeni nəslinin yetişməsinə və Azərbaycanda oftalmologiya elminin inkişafına güclü təsir göstərmişdir".***

Müdriklərin fikrinə görə, insanın yetişməsində başlıca amillərdən biri də onun formalaşdığı mühitdir. 1923-cü il aprelin 28-də qədim Naxçıvan diyarının Şahtaxtı kəndində görkəmli dövlət və elm xadimi, tibb elmləri doktoru Əziz Əliyevin ailəsində dünyaya göz açan Zərifə xanımın cəmiyyət üçün layiqli insan kimi yetişməsində boya-başa çatdığı ziyalı mühitinin böyük təsiri olmuşdur. Zəriflik, humanistlik, Vətənə qəlbən bağlılıq Zərifə xanımın nəsil şəcərəsindən, yaşadığı ailə mühitindən irəli gəlirdi. Zəngin və davamlı maarifçi ənənələri olan ziyalı ailəsinin özünəməxsus tərbiyə üsulları onu hələ uşaq yaşlarından, məktəb illərindən etibarən elmə, işıqlı ideyalara doğru istiqamətləndirmişdir.

Zərifə xanım 1942-ci ildə orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Tibb İnstitutunun Müalicə-profilaktika fakültəsinə daxil olmuşdur. Gənc yaşlarından fitri istedadı, dərin zəkası, geniş dünyagörüşü, yüksək mədəni səviyyəsi ilə seçilən Zərifə Əliyeva tibb elmi ilə yanaşı, digər fənlərə də maraq göstərmiş, hərtərəfli biliyə malik həkim və xeyirxah insan kimi formalaşmışdır.

Qəlbi xeyirxahlıq və humanizm idealları ilə döyünən Zərifə xanım Əliyevanın oftalmologiya elmini seçməsi zərurətdən yaranmışdı. Çünki həmin dövrdə Azərbaycanda böyük bəlaya çevrilən traxoma infeksion xəstəliyi geniş yayılmışdı. Ona qarşı təsirli müalicə üsulları isə yox idi. Ona görə də bu infeksiya və onun ağır nəticələri ilə effektiv mübarizə təkcə oftalmologiya elmi üçün yox, bütövlükdə, respublikanın səhiyyəsi üçün mühüm əhəmiyyət daşıyırdı. Belə bir dövrdə Zərifə xanım traxoma xəstəliyinə qarşı aparılan müalicə-profilaktik tədbirlərin təşkilində fəal iştirak etmişdir.

Gözlərə nur bəxş etmək, dünya işığına həsrət qalan insanlara həyat eşqini qaytarmaq arzusu ilə yorulmadan çalışan Zərifə xanım Əliyeva şərəfli həkimlik peşəsinə daha dərindən yiyələnmək üçün 1947-ci ildə Moskvada Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda təhsilini davam etdirmişdir. İxtisaslaşdırma kursunu müvəffəqiyyətlə başa vurduqdan sonra 1949-cu ildə Azərbaycan Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda elmi işçi kimi fəaliyyətə başlamışdır. 1950-ci ildə aspiranturaya daxil olan görkəmli oftalmoloq müxtəlif göz xəstəliklərinin müalicəsi və profilaktikası işlənib hazırlanması ilə məşğul olmuşdur. O, elmi fəaliyyətinin ilk mərhələsini traxoma infeksion xəstəliyinə və onun ağır nəticələrinin müalicəsi zamanı o dövrdə yeni olan antibiotiklərin imkanlarından səmərəli istifadəyə həsr etmişdir.

1968-ci ildən başlayaraq Zərifə xanım məqsədyönlü şəkildə oftalmologiyanın digər problemləri, o cümlədən görmə orqanının patologiyası ilə ciddi məşğul olmağa başlamış, bu sahənin ilk təşəbbüskarı olmuşdur. Alim dünyada ilk dəfə olaraq görmə orqanının peşə patologiyasını araşdıran elmi-tədqiqat laboratoriyası yaratmış və praktik olaraq elm aləmində yeni bir istiqamətin – "peşə oftalmologiyası"nın əsasını qoymuşdur. O, peşə xəstəlikləri üzərində iş apararkən bilavasitə sənaye müəssisələrində olmuş, zərərli peşə sahələrində çalışan şəxsləri müayinədən keçirmiş, genişmiqyaslı klinik və təcrübi tədqiqatlar nəticəsində zəhərli maddələrin görmə orqanına təsirinin əsas qanunauyğunluğunu aşkara çıxarmışdır. Ümumiyyətlə, Zərifə xanımın bu istiqamətdə apardığı elmi-tədqiqat işləri dünya ədəbiyyatının nadir tədqiqatları sırasındadır. Zərifə xanım elmdə ilk dəfə olaraq yod və şin sənayesi işçilərinin görmə orqanında yaranan peşə xəstəliklərini öyrənmiş və onların profilaktikası tədbirlərini işləyib hazırlamışdır. Onun uzun illər bu sahədə apardığı genişmiqyaslı elmi-tədqiqat işlərinin nəticələri "Şin istehsalatında gözün peşə patologiyası", "Xronik yod intoksikasiyası zamanı oftalmologiya" və "Yod sənayesində gözün peşə xəstəliyinin profilaktikası" kimi qiymətli monoqrafiyalarında öz əksini tapmışdır. Oftalmologiyanın sənaye ilə bağlı problemlərinin öyrənilməsinə fundamental tədqiqatlar həsr edən alim "Göz yaşının axmasının fizioloqiyası", "Gözün və görmə sinir yolunun yaşla əlaqədar dəyişiklikləri", "Gözün hidrodinamik sisteminin anatomik-fizioloji təbiəti" kimi onlarla elmi məqalələr və monoqrafiyalar da çap etdirmişdir.

Çoxillik müşahidələrin, klinik tədqiqatların və eksperimentlərin nəticələri görkəmli oftalmoloq alimin doktorluq dissertasiyasının əsas istiqamətini təşkil etmişdir. Zərifə xanım Əliyeva "Azərbaycanın bir sıra kimya müəssisələri işçilərinin görmə orqanının vəziyyəti" mövzusunda yazdığı dissertasiya işini 1976-cı ildə dünyanın ən nüfuzlu oftalmologiya mərkəzlərindən biri olan H.Helmholts adına Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda müvəffəqiyyətlə müdafiə etmişdir. Dissertasiya işi yüksək qiymətləndirilmiş və 1977-ci ildə Zərifə xanım Əliyevaya tibb elmləri doktoru elmi adı verilmişdir.

Zərifə xanım Əliyeva yazdığı sanballı əsərlərlə tibb elminə dəyərli töhfələr verməklə yanaşı, həm də bu sahədə bir çox yeniliklərin təşəbbüskarı kimi də tanınmışdır. 1977-ci ildə Zərifə xanımın təklifi ilə Bakı şəhərində Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti İdarə Heyətinin plenumu keçirilmişdir. Plenumda görkəmli alimin irəli sürdüyü təklif bəyənilmiş və onun təşəbbüsü ilə 1979-cu ildə Azərbaycan Elmlər Akademiyasının Fiziologiya İnstitutunda görmə orqanının peşə patologiyasının öyrənilməsi üzrə ilk ixtisaslaşdırılmış elmi-tədqiqat laboratoriyası yaradılmışdır.

Zərifə xanım Əliyevanın elmi tədqiqatları yalnız görmə orqanının peşə patologiyası problemləri ilə məhdudlaşmırdı. Onun görmə orqanının virusla zədələnməsinə həsr olunmuş silsilə işləri də elmi ictimaiyyətə yaxşı məlumdur. Həmin tədqiqatlar bir sıra xəstəliklərin diferensial diaqnostikasını və onun müalicəvi əhəmiyyətini yüksəltmişdir. Həkim-oftalmoloqlar üçün nəzərdə tutulmuş dərs vəsaitləri – "Herpetik göz xəstəliyi", "Ağır virus konyunktivitləri" bu gün də öz elmi əhəmiyyətini saxlamışdır. Qlaukomanın etimologiyası, diaqnostikası və müalicəsi məsələlərini də tədqiq etmiş, "Gözün hidrodinamik sisteminin anatomo-fizioloji xarakteristikası" və "Yaşla bağlı gözün əsəb yollarının dəyişməsi" monoqrafiyalarını çap etdirmişdir. Alimin zəngin pedaqoji, elmi və əməli təcrübəsi isə "Oftalmologiyanın aktual məsələləri" monoqrafiyasında öz əksini tapmışdır.

Görkəmli alimi həkim etikası və tibbi deontologiya məsələləri də həmişə düşündürmüşdür. O, gənc həkimlərin tərbiyəsinə, onların peşə fəaliyyəti ilə bağlı problemlərinin öyrənilməsinə və həllinə xeyli zəhmət sərf etmişdir. Zərifə xanımın çoxsaylı məqalələri, çıxışları məhz bu məsələyə həsr olunmuşdur. Onun 1983-cü ildə çapdan çıxmış "Həkimlərin mənəvi tərbiyəsi, deontologiya, tibbi etika və əxlaq məsələləri" əsəri də bu baxımdan qiymətli ədəbiyyatdır. Həkim-xəstə münasibətinə xüsusi diqqət yetirən Zərifə xanım həmin kitabında yazırdı: *"Əsl həkim yalnız o şəxsdir ki, xəstənin əzablarını özünün əzabları bilir və onun üçün sağalıb evinə qayıtmış insanın təbəssümü ən yüksək mükafatdır"*.

Zərifə xanımın çoxşaxəli elmi fəaliyyəti hələ sağlığında öz qiymətini almışdır. 1981-ci ildə oftalmologiyanın inkişafına verdiyi böyük töhfəyə və görmə orqanının peşə patologiyası sahəsində apardığı elmi tədqiqatlara görə professor Zərifə Əliyeva oftalmologiya aləmində ən yüksək mükafata – SSRİ Tibb Elmləri Akademiyasının akademik M.İ.Averbax adına mükafatına layiq görülmüşdür. 1983-cü ildə isə görkəmli oftalmoloq-alim Azərbaycan Respublikası Elmlər Akademiyasının akademiki seçilmişdir. Bununla yanaşı, o, geniş ictimai fəaliyyətinə görə keçmiş SSRİ-nin Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini, "Bilik" Cəmiyyəti İdarə Heyətinin üzvü və keçmiş İttifaqın Oftalmoloqlar Elmi Cəmiyyəti İdarə Heyətinin üzvü olmuş, bir sıra orden və medallara layiq görülmüş, "Azərbaycan Respublikasının Əməkdar elm xadimi" fəxri adını almışdır.

Zərifə xanım Əliyeva müasir, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, bütün mənalı ömrünü Vətəninin və xalqının tərəqqisinə həsr etmiş dahi şəxsiyyətin – ümummilli lider Heydər Əliyevin vəfalı ömür-gün yoldaşı və etibarlı silahdaşı olub. Ümummilli liderimiz bu barədə deyirdi: ***"Ömür yoldaşım kimi həyatımda keçdiyim yolda mənə həmişə dayaq, arxa olduğuna görə, ailə həyatımı çox xoşbəxt etdiyinə görə Zərifə xanım mənim üçün çox əzizdir. O, çox istedadlı, çox sadə insan idi. Onun xatirəsi bizim qəlbimizdə, bizim ailənin bütün gələcək davamçılarının qəlbində əbədi yaşayacaqdır".***

Görkəmli alimin Vətənə, doğma xalqına olan məhəbbəti, bu torpaqda yaşamaqdan duyduğu qürur Azərbaycanı daim gözəlləşən, yüksələn görmək arzuları ilə vəhdət təşkil edirdi. Bu gün ölkə Prezidenti cənab İlham Əliyev ulu öndərin yolunu davam etdirməklə Azərbaycanı sürətli inkişaf və tərəqqi yoluna çıxarmışdır.

Zərifə xanımın işıqlı obrazı yüksək vətənpərvərlik və humanizm rəmzi kimi həmişə bizimlə olacaq, onun parlaq xatirəsi daim anılacaq, qədirbilən xalqımızın qəlbində əbədi yaşayacaqdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***"Zərifə xanımın həyatda əsas amalı həkimlərimizi bilikli və peşəkar, millətimizi sağlam və gözü nurlu görmək idi. Onun zəngin elmi irsi, tədqiqatları, qazandığı nailiyyətlər, fundamental əsərləri Azərbaycan tibb elminin parlaq səhifəsini təşkil edir. Xalqımızın yetişdirib dünya tibb elminə bəxş etdiyi görkəmli alimin və istedadlı həkimin şəxsiyyəti bu gün də – ölkəmizin müstəqillik şəraitində yaşadığı dövrdə də hər bir alimin və Hippokrat andını içmiş hər bir həkimin cəmiyyətdə oynamalı olduğu rola parlaq nümunədir".***

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Ukraynalı müəllimlər muxtar respublikanın mədəniyyət və təhsil müəssisələrində olmuşlar





Aprelin 28-də görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevının anadan olmasının 95-ci ildönümü tamam olur. Bu münasibətlə Ukrayna Respublikasının İrpen şəhərində fəaliyyət göstərən Akademik Zərifə xanım Əliyeva adına 12 nömrəli xarici dillər üzrə ixtisaslaşmış ümumtəhsil məktəbinin bir qrup müəllimi Naxçıvan Muxtar Respublikasına gəlib. Məktəbin direktoru Valentina Antonenko, dillər üzrə dərs hissə müdiri Lyudmila Arbuzina, informasiya-kommunikasiya texnologiyaları üzrə müəllim Alla Çumak və Ukrayna Təhsil Nazirliyinin əməkdaşı Oksana Zubenko səfər çərçivəsində muxtar respublikanın gəzməli-görməli yerləri ilə tanış olacaq, Kəngərli rayonunda Akademik Zərifə xanım Əliyeva adına Şahtaxtı kənd tam orta məktəbində görkəmli alimin 95 illiyi münasibətilə keçiriləcək tədbirdə iştirak edəcəklər.

Dünən qonaqlar ilk olaraq xalqımızın ümummilli lideri Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsinin önünə gül dəstələri qoymuş, Heydər Əliyev Muzeyi ilə tanış olmuşlar.

Məlumat verilmişdir ki, muxtar respublikamızda yaradılan muzeylər içərisində Heydər Əliyev Muzeyi xüsusi əhəmiyyət kəsb edir. Görkəmli ictimai-siyasi xadim, dünya şöhrətli siyasətçinin muzeylərə sığmayan zəngin ömür yolunu əks etdirən dəyərli ekspozisiyada ümummilli liderimizin siyasi fəaliyyətinin müxtəlif tarixi mərhələlərini əks etdirən zəngin materiallar nümayiş olunur.

Vurğulanmışdır ki, hər il muzeydə ulu öndər Heydər Əliyevin ictimai-siyasi fəaliyyəti ilə bağlı aidiyyəti təşkilatlarla elmi konfranslar, lektoriyalar, açıq dərslər keçirilir, həmçinin muzeyə tələbə və məktəblilərin ekskursiyaları təşkil olunur.

Naxçıvan Dövlət Xalça Muzeyi ilə tanışlıq zamanı ukraynalı qonaqlara Naxçıvan xalçaçılıq ənənələri barədə ətraflı məlumat verilib.

Sonra qonaqlar Heydər Əliyev adına tam orta məktəbdə və Naxçıvan şəhər 3 nömrəli tam orta məktəbdə olmuş, adıçəkilən təhsil ocaqlarının müəllim kollektivləri ilə görüşmüş, tədris şəraiti haqqında məlumatlar almışlar.

Qeyd edək ki, Ukrayna Respublikasının İrpen şəhərində fəaliyyət göstərən Akademik Zərifə xanım Əliyeva adına 12 nömrəli xarici dillər üzrə ixtisaslaşmış ümumtəhsil məktəbinin müəllimlərinin muxtar respublikaya səfəri davam edir.

✍ **Səbuhi HƏSƏNOV**

## Sahibkarlarla görüş keçirilib



Dünən Naxçıvan Biznes Mərkəzində “Sahibkarlıq subyektlərinə əcnəbi işçilərin cəlb edilməsi və kadr hazırlığı” mövzusunda keçirilən tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası iqtisadiyyat nazirinin müavini Anar Əhmədov qeyd edib ki, muxtar respublikada sahibkarlığın inkişafı istiqamətində ardıcıl, səmərəli və sistemli tədbirlər görülür, sahibkarlıq subyektlərinə maliyyə dəstəyi göstərilir. Belə ki, təkcə 2018-ci ilin ötən dövrü ərzində muxtar respublikada nazirliyin xətti ilə yeni istehsal və xidmət sahələrinin yaradılması üzrə 16 layihəyə güzəştli dövlət maliyyə dəstəyinin göstərilməsi nəticəsində 5 milyon 544 min manat vəsait sərf olunub. 90-dan çox yeni iş yeri açılıb. Muxtar respublika iqtisadiyyatının inkişafı, yeni istehsal və xidmət sahələrinin yaradılması daxili əmək bazarında haqqıödənilən əmək fəaliyyəti ilə məşğul olan miqrantların sayının artmasına gətirib çıxarıb.

Dövlət Miqrasiya Xidməti rəisinin müavini Elnur Məmmədov çıxış edərək bildirib ki, hazırda muxtar respublikada özəl sektora və sahibkarlığa dövlət dəstəyinin gücləndirildiyi, əlverişli biznes və investisiya mühitinin formalaşdığı bir vaxtda Dövlət Miqrasiya Xidməti də qanunvericiliyin tələblərinə uyğun olaraq səlahiyyətləri çərçivəsində sahibkarlarla əməkdaşlıq əlaqələrini daha da möhkəmləndirir. Bununla bağlı xidmət tərəfindən hər zaman özəl sektora diqqət göstərilir, sahibkarlarla mütəmadi görüşlər keçirilir.

Tədbirdə çıxış edən Dövlət Miqrasiya Xidmətinin əməkdaşı Samir Sadiqov əcnəbi işçilərin muxtar respublika ərazisində əmək fəaliyyətinə cəlb edilməsinin qanunvericiliklə müəyyən edilmiş qaydaları və şərtlərinin əhəmiyyətindən danışıb. Sahibkarların diqqətinə çatdırılıb ki, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin və xarici hüquqi şəxslərin filial və nümayəndəliklərinin onlar üçün iş icazəsi alınmasından sonra Azərbaycan Respublikasında haqqıödənilən əmək fəaliyyəti ilə məşğul ola bilərlər.

Sonra İqtisadiyyat Nazirliyinin əməkdaşı Mircavid Tağızadənin və Dövlət Məşğulluq Xidmətinin əməkdaşı Elmar Eyvazovun çıxışları olub.

Çıxışlarda yerli əmək ehtiyatları hesabına tutulmayan boş iş yerlərinin əcnəbi işçi qüvvəsi tərəfindən ödənilməsinin qaydaları və şərtləri, məşğulluğun təmin olunmasında sahibkarlığın rolu, əmək ehtiyatlarından səmərəli istifadə haqqında söhbət açılıb.

Sahibkarlar adından çıxış edən Seyfəddin Rəhimov belə görüşlərin keçirilməsinin iş adamlarının maarifləndirilməsinə xidmət etməsindən danışıb, təşkilatçılara minnətdarlığını bildirib. Tədbirin sonunda sahibkarları maraqlandıran suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin Miqrasiya proseslərinin təhlili və informasiya təminatı şöbəsi***

*Şərur Rayon İcra Hakimiyyətində “Naxçıvan Muxtar Respublikasında torpaqların elektron kadastr uçotu informasiya sisteminin yaradılması və rəqəmsal kadastr xəritəsinin tərtib olunması istiqamətində görülmüş işlər və qarşıda duran vəzifələr” mövzusunda müşavirə keçirilib.*

## Torpaqların rəqəmsal kadastr xəritəsinin tərtib olunması mühüm əhəmiyyətə malikdir

Tədbiri Şərur Rayon İcra Hakimiyyətinin başçısı Kamal Cəfərov açaraq rayonda bu sahədə görülən işlərdən danışıb.

Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin sədri Müslüm Cabbarzadə “Naxçıvan Muxtar Respublikasında torpaqların elektron kadastr uçotu informasiya sisteminin yaradılması və rəqəmsal kadastr xəritəsinin tərtib olunması istiqamətində görülmüş işlər və qarşıda duran vəzifələr” mövzusunda çıxış edib. Bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 2 aprel tarixli “Naxçıvan Muxtar Respublikasında torpaq münasibətlərinin tənzimlənməsi sahəsində əlavə tədbirlər haqqında” Fərmanı torpaq münasibətlərinin tənzimlənməsi mexanizmlərinin təkmilləşdirilməsi, torpaqların elekron uçotunun aparılması yolu ilə torpaq ehtiyatlarından daha səmərəli istifadənin təmin edilməsi üçün olduqca mühüm əhəmiyyətə malikdir. Bu fərmana əsasən 2020-ci ilədək muxtar respublikada dövlət və bələdiyyə mülkiyyətində, habelə xüsusi mülkiyyətdə olan bütün kateqoriyalı torpaqların elektron uçotunun aparılması və xəritələşdirilməsi yolu ilə torpaqların elektron kadastr uçotu informasiya sistemi yaradılacaq və rəqəmsal kadastr xəritəsi tərtib ediləcək.

Bildirilib ki, dövlət orqanları tərəfindən aparılan sahəvi dövlət kadastrlarında torpaqlarla bağlı mövcud məlumatların, habelə aidiyyəti dövlət orqanları tərəfindən torpaqların münbitliyinin bərpası və artırılması istiqamətində həyata keçirilən tədbirlərin, torpaqlardan istifadə vəziyyətinin müəyyən olunması məqsədilə aparılan monitorinqlərin nəticələri barədə məlumatlar həmin sistemə daxil ediləcək. Sistemdə muxtar respublikanın bütün yaşayış məntəqələri üzrə daşınmaz əmlak obyektləri barədə məlumatlar, torpağın sahəsi və ölçüləri, kommunikasiya xətləri, mühafizə zonaları, torpağın yerləşmə vəziyyətini göstərən koordinatları, təyinatı, üzərindəki tikilini xarakterizə edən göstəricilər əks olunacaq.

Müslüm Cabbarzadə onu da qeyd edib ki, torpaqların elektron kadastr uçotu informasiya sisteminin yaradılması və rəqəmsal kadastr xəritəsinin tərtib edilməsi zamanı fiziki və hüquqi şəxslərin mülkiyyətindəki və qanuni istifadəsindəki fərdi yaşayış evlərinin, həyətyanı sahələrin, fərdi bağların yerləşdiyi torpaqların və torpaq islahatı zamanı verilmiş pay torpaqlarının hüquqi və texniki sənədlərindəki məkan göstəriciləri ilə torpaqlardan faktiki istifadə vəziyyətinin məkan göstəriciləri arasında mövcud olan uyğunsuzluqlar aradan qaldırılacaq, kadastr xəritələri ilə bağlı problemlər həllini tapacaqdır.

Komitə sədri yeni informasiya sisteminin muxtar respublikada daşınmaz əmlakın qeydiyyatı işinin sadələşməsini təmin edəcəyini də diqqətə çatdırıb. Bütün bunlar torpaq sahəsinə dair texniki sənədlərin elektron sistem vasitəsilə verilməsinə, əmlak bankının təkmilləşməsinə və digər mühüm məsələlərin həllinə səbəb olacaqdır.

Qeyd olunub ki, muxtar respublikanın bir neçə kənd və qəsəbələrində həyətyanı torpaq sahələrinin elektron taxeometr vasitəsilə planlama işləri başa çatıb. Ümumilikdə, muxtar respublika üzrə 25 mindən artıq daşınmaz əmlak obyekti plana alınıb. O cümlədən Şərur rayonu üzrə Mahmudkənddə 1078, Tumaslı kəndində 478, Yengicə kəndində 1242, Təzəkənddə 84, Diyadin kəndində 134, Zeyvə və Düdəngə kəndlərində 1776 daşınmaz əmlak obyekti plana alınıb.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Dövlət Yerquruluşu, Geodeziya və Xəritəçəkmə Layihə İnstitutunun direktoru Cəfər Əliyev və institutun Yerquruluşu şöbəsinin rəisi Zülfüqar Bayramov məruzə ətrafında çıxış ediblər.

**Xəbərlər şöbəsi**

## Naxçıvanın yerli istehsalı olan inşaat materiallarının tanıtımı olub

***Aprelin 27-də Naxçıvan Biznes Mərkəzində Naxçıvan İnşaat Materialları İstehsal Kompleksinin məhsullarının tanıtımına həsr olunmuş tədbir keçirilib.***



Tədbirdə giriş sözü ilə çıxış edən Naxçıvan İnşaat Materialları İstehsal Kompleksi direktor müavini Rafiq Süleymanov bildirib ki, kompleks 2015-ci ildən fəaliyyətə başlayıb və istehsal etdiyi yerli məhsulları ilə Naxçıvan əhalisinin tələbatını ödəyir. Kompleksdə Naxçıvanın təbii xammalından istifadə olunmaqla, ekoloji təmiz materiallar istehsal olunur.

Qeyd olunub ki, kompleksin akkreditasiyadan keçmiş müasir avadanlıqlarla təchiz olunmuş laboratoriyasında yoxlanılan və standartlara cavab verən sertifikatlı 8 adda məhsul istehsal olunur.

Sonra çıxış edən Naxçıvan Sement Zavodu və Naxçıvan İnşaat Materialları İstehsal Kompleksinin Baş direktoru Mikayıl Cəfərov istehsal olunan inşaat materiallarının bütün standartlara cavab verməsi və bazara zəmanətlə çıxarıla bilməsi üçün son zamanlar görülmüş işlərdən danışıb.

Bildirilib ki, hazırda kompleksdə istehsal olunan sönmüş və sönməmiş əhəng məhsulları, astar və üzlük suvaqlar, kartonpiyer gipsləri, gips əsaslı 12,5 millimetr qalınlıqda istehsal olunan gips karton lövhə, əsasən, asma tavan və dekorativ formaların hazırlanmasında istifadə olunan təbii gips əsaslı 9,5 millimetr qalınlıqda istehsal edilən gips karton lövhələr və Avropa “Ekologiya Dostu İş Qrupu” emblemini daşıyan məsaməli beton bloklar yüksək keyfiyyət standartlarına uyğun olmaqla, istehlakçıların tələbatlarına tam cavab verməkdədir.

Qeyd olunub ki, bütün bunlar inşaat materialları istehsalı sahəsində yüksək texnologiyaların tətbiqinin mənimsənilməsi ilə mümkün olub. Yüksək texnoloji məhsulların inşaatda tətbiqi enerjiyə qənaətdə, ekoloji təmizliyə əməl olunmasında əsas şərtlərdən biridir. İnsanların komfortlu yaşayış standartlarını yüksəldən belə məhsulların inşaat işlərində tətbiqinin sağlamlığın qorunmasında da mühüm rolu vardır.

Tədbirdə çıxış edən Naxçıvan İnşaat Materialları İstehsal Kompleksinin Məsaməli Beton Zavodunun istehsalat müdiri Şahin Həsənov yüksək dərəcəli istilik və səs izolyasiyası xüsusiyyətlərinə malik olan, odadavamlı və ekoloji təmiz məsaməli beton məmulatları haqqında danışaraq belə məhsullardan istifadə olunmasının iqtisadi səmərəsindən bəhs edib. Bu məhsulların yenidən texnoloji dövriyyəyə cəlb olunması ilə ətraf mühitin qorunmasına verdiyi töhfə də qeyd olunub.

Daha sonra çıxış edən Naxçıvan İnşaat Materialları İstehsal Kompleksinin Keyfiyyətə nəzarət şöbəsinin müdiri Cəfər Bəylərov istehsal olunan məhsulların keyfiyyət göstəricilərindən danışaraq tədbir iştirakçılarının suallarını cavablandırıb, bu məhsullar haqqında videoçarx nümayiş etdirilib.

**Əli CABBAROV**

## Naxçıvanlı həkimlər Urmiyada keçirilən elmi-praktik konfransda iştirak ediblər

***Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikası arasında mövcud olan qarşılıqlı əlaqələr səhiyyə sahəsində də tərəfdaşlığın inkişafı üçün geniş imkanlar açır. Bu əməkdaşlıq çərçivəsində naxçıvanlı həkimlərdən ibarət nümayəndə heyəti aprelin 25-i və 26-da İran İslam Respublikasının Qərbi Azərbaycan vilayətinin mərkəzi Urmiya şəhərində səfərdə olub.***

Kardiorevmotoloq Aytən Rzayeva, kardioreanimotoloqlar Xətai Əliyev, Ramin Hacıyev, anestezioloq-reanimotoloq Şahin Mazanov, həkim cərrah İsa Abdullayev, nevropatoloq Anar Səfərov, həkim fizioterapevt Fazil Fərzəliyevdən ibarət olan nümayəndə heyətinə Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin müavini Samrat Gəncəyeva rəhbərlik edib.

Səfərin ilk günü nümayəndə heyəti Urmiya şəhərində yerləşən İmam Xomeyni xəstəxanası və ixtisaslaşdırılmış klinikası ilə tanış olub. Məlumat verilib ki, ötən əsrin 80-ci illərində yaradılmış bu şəfa ocağı hazırda İranın Qərbi Azərbaycan əhalisinin sağlamlığının qorunması sahəsində başlıca mərkəzə çevrilib. Son illər burada yeni korpuslar tikilib, klinika keyfiyyətli tibbi xidmət göstərilməsinə imkan verən bütün zəruri avadanlıqlarla təmin edilib.

“Seyyid əşşühədə” ürək xəstəxanasında olarkən naxçıvanlı həkimlər həmkarları ilə qarşılıqlı təcrübə mübadiləsi aparıblar. Bildirilib ki, bu səhiyyə müəssisəsi dünya təcrübəsindən bəhrələnərək tibbi xidmətin müasir səviyyədə təşkilinə öz töhfələrini verir. Müasir avadanlıqlarla təchiz olunmuş və yüksəkixtisaslı həkimlərin çalışdığı xəstəxanada ürək-damar xəstəliklərinin müayinə və müalicəsinə geniş imkanlar vardır. Sevindirici haldır ki, belə əməliyyatlar Naxçıvan Muxtar Respublikasında da həyata keçirilir.

Daha sonra nümayəndə heyəti “Ümid” onkoloji klinikası ilə tanış olub.

Urmiya şəhərində fəaliyyət göstərən özəl “Azərbaycan” xəstəxanasında keçirilən beynəlxalq konfransda naxçıvanlı həkimlər bu tədbirdə dünya səhiyyəsinin aktual məsələləri barədə çıxışlar ediblər.



Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin müavini Samrat Gəncəyeva “Azərbaycan” xəstəxanası ilə qarşılıqlı əlaqələri, bütövlükdə, hər iki ölkənin səhiyyə sistemi arasında münasibətlərin tərkib hissəsi kimi dəyərləndirib. O bildirib ki, bu il mart ayında Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi ilə İran İslam Respublikasının Səhiyyə, Müalicə və Tibbi Təhsil Nazirliyi arasında səhiyyə və tibb elmi sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumuna dair Fəaliyyət Proqramının imzalanması, bütövlükdə, hər iki ölkə əhalisinin sağlamlığının qorunmasına xidmət edir.

Nazir müavini onu da vurğulayıb ki, İran İslam Respublikası ilə Azərbaycan Respublikası arasında dərin iqtisadi, mədəni, dini və dostluq münasibətləri mövcuddur. Səhiyyə sahəsindəki elmi-təcrübi əlaqələr də hər iki ölkənin səhiyyəsi üçün mühüm və əhəmiyyətlidir. Qeyd olunub ki, Naxçıvanda dövlətin dəstəyi və qayğısı nəticəsində səhiyyə sistemi sürətli inkişaf mərhələsindədir. Burada dünya standartlarına uyğun xəstəxanalar fəaliyyət göstərir və tibbin müxtəlif sahələrində yüksəkixtisaslı kadrlar yetişmişdir. Son zamanlar ölkələrimiz arasında əməkdaşlığın inkişafı istiqamətində mühüm işlər görülüb, bir sıra qarşılıqlı səfərlər və görüşlər keçirilib. Samrat Gəncəyeva naxçıvanlı həkimlərin İrana növbəti səfərinin də əlaqələrin inkişafına töhfə verəcəyinə əminliyini vurğulayıb, səhiyyə sahəsində əməkdaşlığa dair fikirlərini diqqətə çatdırıb.

Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin gənc həkim kardioreanimotoloqu Xətai Əliyevin elmi məruzəsini konfrans iştirakçıları böyük maraqla dinləyiblər. İngilis dilində təqdim olunan bu məruzədə muxtar respublikanın səhiyyə müəssisələrində son illər qazanılmış uğurlar barədə məlumat verilib, həmin müəssisələrdə dünya səhiyyəsinin son elmi-tibbi yeniliklərinin tətbiqindən bəhs edilib. Digər məruzə Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasının kardiorevmotoloqu Aytən Rzayeva tərəfindən ingilis dilində təqdim olunub. “Yenidoğulmuşlarda nekrotik enterokolit və bu xəstəliyə müasir yanaşma tərzi” mövzusunda məruzə və bu sahədə apardığı elmi tədqiqatlar maraqla dinlənilib.

Nümayəndə heyəti bir sıra görüşlərdə də iştirak edib və Urmiya şəhərinin görməli yerləri ilə tanış olub.

**Hüseyn ƏSGƏROV**

## Muxtar respublikada əməyin mühafizəsi diqqət mərkəzində saxlanılır

***2003-cü ildə Beynəlxalq Əmək Təşkilatı tərəfindən 28 aprel Ümumdünya Əməyin Mühafizəsi Günü elan edilmişdir. Bu günün təsis olunmasında məqsəd istehsalatda bədbəxt hadisələrin baş verməsinin qarşısının alınmasına, sağlam və təhlükəsiz əmək şəraitinin yaradılmasına ictimai diqqətin artırılmasıdır.***

Ölkəmizdə əməyin mühafizəsi, işçilərin hüquqlarının qorunması, təhlükəsiz və sağlam iş yerlərinin yaradılması sosial siyasətin əsas istiqaməti hesab olunur. Bu sahədə həyata keçirilən tədbirlər ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Belə ki, ulu öndərin ölkəmizə rəhbərliyi dövründə əmək münasibətləri və əməyin mühafizəsi sahəsində beynəlxalq prinsiplərə uyğun normativ-hüquqi aktlar qəbul edilmiş, Beynəlxalq Əmək Təşkilatının bir sıra konvensiyaları ratifikasiya edilmiş, zəngin qanunvericilik bazası yaradılmışdır. Bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin diqqəti sayəsində ölkəmizdə əmək hüquqları təmin olunur, əməyin mühafizəsi sahəsində qanunvericilik təkmilləşdirilir, əmək şəraiti yaxşılaşdırılır.

Muxtar respublikada da əməyin mühafizəsi tədbirləri diqqət mərkəzindədir. Əmək şəraitinin yaxşılaşdırılması ilə yanaşı, istehsalat mədəniyyətinin yüksəldilməsi istiqamətində də ardıcıl tədbirlər görülür. Muxtar respublikada həyata keçirilən genişmiqyaslı tikinti-abadlıq işləri, yeni istehsal və emal müəssisələrinin, xidmət sahələrinin fəaliyyətə başlaması, iqtisadiyyatın müxtəlif sahələrində çalışan işçilərin əmək hüquqlarının qorunması və əməyin mühafizəsi üzrə tədbirlərin həyata keçirilməsini şərtləndirir.

2011-ci ildə Naxçıvan Muxtar Respublikasının Ali Məclisində istehsalatda baş verən bədbəxt hadisələr və onların aradan qaldırılması sahəsində görülən tədbirlər, 2012-ci ildə tikinti sektorunda əməyin təşkili, təhlükəsizlik qaydalarına riayət olunması və 2014-cü ildə tikintidə işlərin keyfiyyətlə aparılması və təhlükəsizlik tədbirləri ilə bağlı keçirilən müşavirələrdə verilən tapşırıqların icrası əməyin mühafizəsi ilə bağlı uğurlu nəticələrin əldə edilməsinə səbəb olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı”nda qeyri-formal məşğulluğun qarşısının alınması və əməyin mühafizəsi istiqamətində daha geniş tədbirlərin görülməsi nəzərdə tutulmuşdur. Hazırda muxtar respublikada işçilərin həyatı və sağlamlığına təhlükə yarada biləcək hadisələrin qarşısının alınması üçün profilaktik tədbirlər görülür, tikinti aparılan obyektlərdə işçilər üçün sanitar-gigiyenik qaydalara cavab verən xüsusi yerlər hazırlanır, onlar peşələrinə uyğun xüsusi geyim və fərdi mühafizə vasitələri ilə təmin edilirlər.

Əməyin mühafizəsi istiqamətində nəzarət və maarifləndirmə tədbirləri də görülür. Görülən tədbirlər nəticəsində əməyin mühafizəsi qaydalarının pozulmasına görə inzibati xəta hallarında, həmçinin istehsalatda baş vermiş bədbəxt hadisələrin sayında ötən illərlə müqayisədə azalma olmuşdur. Cari ilin birinci rübündə bu istiqamətdə tədbirlər davam etdirilmiş, əməyin mühafizəsinin təşkili ilə bağlı 11 obyektə baxış keçirilmiş, fərdi mühafizə vasitələrindən istifadə etməyən 3 nəfər iş sahəsindən uzaqlaşdırılmış, 6 işçi isə fərdi mühafizə vasitələri ilə təmin edilmişdir. Qeyri-formal məşğulluğun qarşısının alınması da diqqətdə saxlanılmış, cari ilin ilk rübündə 13 obyektə nəzarət zamanı 5 işçi ilə yeni əmək münasibətinin rəsmiləşdirilməsi, 29 işçinin isə əmək müqaviləsində əməkhaqqının real göstərilməsi təmin edilmişdir.

Muxtar respublikada müasir informasiya-kommunikasiya vasitələrinin imkanlarından istifadə edilərək işçilərin əmək hüquqları ilə bağlı bir sıra məsələlər elektronlaşdırılmış, Naxçıvan Muxtar Respublikasında “Əmək Müqaviləsi Bildirişi üzrə Elektron İnformasiya Sistemi” işəgötürənlərin istifadəsinə verilmişdir. Bu sistem işəgötürən ilə işçi münasibətlərinin rəsmiləşdirilməsinə, əməyin mühafizəsi məsələlərinə dövlət nəzarətinin daha da güclənməsinə imkan verəcəkdir. Elektron informasiya sistemi ilə əlaqədar olaraq muxtar respublikanın şəhər və rayonlarında dövlət müəssisələrinin, həmçinin işçi sayı çox olan özəl müəssisələrin nümayəndələrinin iştirakı ilə elektron informasiya sisteminin tətbiqinə dair seminarlar təşkil olunmuş, seminar iştirakçılarına elektron informasiya sisteminə dair hazırlanmış maarifləndirici bukletlər paylanılmışdır. Bununla yanaşı, “Əmək Müqaviləsi Bildirişi üzrə Elektron İnformasiya Sistemi”nə dair videoçarx və işəgötürənlər üçün videotəlimat hazırlanaraq Naxçıvan Dövlət Televiziyasında efirə verilmiş, həmçinin Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində “255” nömrəli qaynar xətt yaradılmışdır.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

***Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasında Ümumdünya Əməyin Mühafizəsi Günü ilə əlaqədar tədbir keçirilib.***

## Ümumdünya Əməyin Mühafizəsi Günü ilə bağlı tədbir



Tədbiri giriş sözü ilə şuranın sədri Sucaxan Novruzov açaraq bildirib ki, bu gün Azərbaycanda davam etdirilən hüquqi-dünyəvi dövlət quruculuğu vətəndaşların hüquq və mənafelərinin ən yüksək səviyyədə təminatına xidmət edir. İnsanların hüquqlarının qorunması, əməyin mühafizəsi, sağlam və təhlükəsiz iş şəraitinin təşkili dövlət siyasətinin əsas istiqamətlərindən birini təşkil edir. Muxtar respublikamızda da işçilərin hüquqlarının qorunması və əməyinin mühafizəsi daim diqqət mərkəzində saxlanılan məsələlərdəndir.

Qeyd olunub ki, əməyin mühafizəsi və yerlərdə təhlükəsizlik qaydalarına əməl olunması məqsədilə Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurası əməkdaşları 150-dən artıq tikinti, elektroenergetika, emal sənayesi və digər təşkilatlarda olub, maarifləndirici tədbirlər həyata keçirib, əməyin mühafizə edilməsi qaydalarına əməl olunmasına nəzarət gücləndirilib.

Şuranın əməkdaşlarından Ceyhun Məmmədov, Hüseyn Quliyev, Mərdan Qurbanov, Əfruz İsmayılova çıxış edərək bildiriblər ki, muxtar respublikamızda əməyin mühafizəsi sahəsində həyata keçirilən tədbirlər insan amilinə göstərilən diqqət və qayğını özündə ehtiva edir. Muxtar respublikamızda təhlükəsiz əmək şəraitinin təmin olunması prosesində dövlət qurumlarının, işçilərin və işəgötürənlərin iştirak etməsi təqdirolunası amillərdir.

Tədbirin sonunda bir qrup əməkdaş “Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının 25 illik yubileyi” döş nişanı ilə təltif olunub.

**✍ Nail ƏSGƏROV**

## Naxçıvan Beynəlxalq Hava Limanında taktiki-xüsusi təlim keçirilib



***Naxçıvan Muxtar Respublikasının Fövqəladə Hallar Nazirliyinin təşkilatçılığı ilə Naxçıvan Beynəlxalq Hava Limanında “Hava limanının yerüstü obyektlərində və hava gəmilərində baş verən yanğınlar zamanı insanların xilas edilməsi və yanğının söndürülməsi” mövzusunda taktiki-xüsusi təlim keçirilib.***

Təlimin keçirilməsində məqsəd Fövqəladə Hallar Nazirliyi ilə Naxçıvan Beynəlxalq Hava Limanı arasında fövqəladə hallar zamanı birgə fəaliyyətin təşkili, qarşılıqlı əlaqələrin qurulması, şəxsi heyətin döyüş və fiziki hazırlığının artırılması, eyni zamanda çevikliyinin yoxlanılmasıdır.

Hava limanında keçirilmiş təlim zamanı aviasiya dispetçerinin şərti olaraq havada qəza şəraitində olan hava gəmisi ilə rabitə əlaqəsinin yaradılması, lazımi məlumatların toplanması və Aviasiya Təhlükəsizliyi, FHN-nin ***“112”*** və ***“101”*** xidmətlərinə ötürülməsi, aeroportun yanğın təhlükəsizliyi və qəza-xilasetmə komandasının, eləcə də digər xidmətlərinin qüvvə və vasitələrinin aeroport ərazisində müəyyən olunmuş meydançada hazırlıq vəziyyətinə gətirilməsi, şərti olaraq hava nəqliyyatında baş vermiş yanğın qəzaları zamanı insanların təxliyə edilməsi, təyyarənin daxilində, eyni zamanda ətrafda baş vermiş yanğınların söndürülməsi əməliyyatları həyata keçirilib.

Təlim zamanı, həmçinin aeroportun Karqo terminalında, aerovağzal kompleksində və yanacaq-sürtkü materialları anbarında yanğın və digər xoşagəlməz hadisələr zamanı Naxçıvan Beynəlxalq Hava Limanının qüvvə və vasitələrinin uzlaşmış fəaliyyətinin təşkili, digər orqanlarla qarşılıqlı əlaqədə yanğınların söndürülməsi, zərərçəkənlərə ilk tibbi yardımın göstərilməsi, işçilərin və sərnişinlərin təhlükəsizliyinin təmin olunması, maddi vəsaitlərin xilası və təxliyəsi vəziyyətlərinə baxılıb. Həmçinin rəhbər heyətin yarana biləcək situasiyanın qiymətləndirilməsi və qərar qəbuletmə bacarığı təkmilləşdirilib. Təlim planına uyğun olaraq aeroportun yanğın təhlükəsizliyi və qəza-xilasetmə komandasının şəxsi heyətindən “Döyüş açılışı” normativləri üzrə məqbullar qəbul edilib.

Təlimə Naxçıvan Beynəlxalq Hava Limanının yanğın təhlükəsizliyi və qəza-xilasetmə komandasının və digər xidmətlərinin 83 nəfər şəxsi heyəti, 15 ədəd xüsusi təyinatlı texnikası, idarəetmə və rabitə vasitələri cəlb edilib, təlim üzrə qarşıya qoyulmuş məqsədlərə nail olunub.

Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Mülki müdafiə işinin təşkili şöbəsinin rəisi, polkovnik Emin Qasımov təlimdən sonrakı çıxışında qeyd edib ki, şəxsi heyətin döyüş, peşə və fiziki hazırlığının artırılması baxımından gələcəkdə muxtar respublikanın bütün strateji əhəmiyyətli obyektlərində bu kimi təlimlər keçiriləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti***

***Olimpiadanın keçirilməsinin məqsədi Naxçıvan şəhərinin Gənclər Paytaxtı seçilməsinin qeyd olunması, yeniyetmələrin intellektual fəaliyyətə cəlb edilməsi, onların bilik səviyyələrinin, dünyagörüşlərinin artırılması, asudə vaxtlarının səmərəli təşkil edilməsidir. Yarışlar başlanmazdan əvvəl Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin şöbə müdiri Tahir Məmmədli və Gənclər Fondunun əməkdaşı Ceyhun Xəlilli çıxış edərək oyunların keçirilmə qaydaları haqqında məlumat veriblər.***

## İntellektual oyunlar olimpiadasının Şahbuz rayon mərhələsi başa çatıb



***Olimpiada “Nuh yurdu”, “Kim? Nə? Hara?”, “Vətəni tanı” intellektual oyunları və “İntellektual gənc” bilik yarışması üzrə vahid turnir şəklində keçirilib.***

“İntellektual gənc” bilik yarışmasında ilk üç pillədə Şahbuz şəhər 1 nömrəli tam orta məktəbin şagirdi Elvina Həsənli, Külüs kənd tam orta məktəbinin şagirdi Simar Əliyev və Biçənək kənd tam orta məktəbinin şagirdi Şəbnəm Seyidova qərarlaşıblar.

“Kim? Nə? Hara?” intellektual oyununda isə qalib adını Biçənək kənd tam orta məktəbinin şagirdi Hərgül Hüseynli qazanıb. Şahbuz şəhər 1 nömrəli tam orta məktəbin şagirdi Məryəm Məmmədli ikinci, Aşağı Qışlaq kənd tam orta məktəbinin şagirdi Nisə Rəcəbli üçüncü olublar.

“Vətəni tanı” intellektual oyununda Kükü kənd tam orta məktəbinin “Odlar yurdu” komandası hamıdan güclü olub. Digər iki pillədə Şahbuz şəhər 1 nömrəli tam orta məktəbin “İldırım” və Şahbuz şəhər 2 nömrəli tam orta məktəbin “Qartal” komandaları qərarlaşıblar.

“Nuh yurdu” intellektual oyununda isə Şahbuz şəhər 1 nömrəli tam orta məktəbin “İldırım” komandası rəqiblərini qabaqlayıb. Külüs kənd tam orta məktəbinin “Turan” komandası ikinci, Kolanı kənd tam orta məktəbinin “Zəka” komandası isə üçüncü olub.

Qaliblərə təşkilatçıların diplom, fəxri fərmanları və oxunması zəruri olan kitablar təqdim edilib.

Qeyd edək ki, qalib komandalar Şahbuz rayonunu may ayında təşkil olunacaq “İntellektual oyunlar olimpiadası”nın muxtar respublika birinciliyində təmsil edəcəklər.

Olimpiada Naxçıvan Muxtar Respublikası Gənclər və İdman, Təhsil nazirlikləri, Naxçıvan Muxtar Respublikasının Gənclər Fondu, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Heydər Əliyev adına Gənclər Birliyinin və “Gənclərin İntellektual İnkişaf Mərkəzi” İctimai Birliyinin birgə təşkilatçılığı ilə keçirilib.

## Həndbol üzrə yoldaşlıq görüşü olub



***Naxçıvan Qarnizonu tam orta məktəbinin idman zalında məktəblər arasında dostluq və idman əlaqələrinin gücləndirilməsi məqsədilə həndbol üzrə yoldaşlıq görüşü keçirilib.***

Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə keçirilən yoldaşlıq görüşündə Naxçıvan Qızlar Liseyi ilə Naxçıvan Qarnizonu tam orta məktəbinin qız komandaları mübarizə aparıblar. Tədbirin açılış mərasimində çıxış edən Gənclər və İdman İdarəsinin rəisi Xəyal Qurbanov və Naxçıvan Qarnizonu tam orta məktəbinin direktoru Natiq Əhmədov muxtar respublikada idman sahəsində görülən işlərdən, qazanılan uğurlardan danışaraq bildiriblər ki, görüşün keçirilməsində əsas məqsəd qızları kütləvi idmana cəlb etməkdən ibarətdir.

Görüşdə 18:8 hesabı ilə Naxçıvan Qarnizonu tam orta məktəbinin komandası qalib gəlib. Sonda hər iki komandaya diplom və fəxri fərmanlar təqdim edilib.

**✍ Ceyhun MƏMMƏDOV**

***İtmişdir***

Sədərək rayon Sədərək kənd sakini Vəliyev Əli Məmmədkərim oğlunun adına 5 aprel 1999-cu il tarixdə verilmiş 185 inventar nömrəli mülkiyyət hüququ haqqında şəhadətnamə itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Xətai küçəsi, döngə 1, ev 8-də yaşamış İsmayılov Nazim Mehdi oğlunun adına olan evin 14887 inventar nömrəli texniki pasportu və MH-0038761 seriya nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1490. Sifariş № 311